Qardaş ölkədən

# əsl demokratiya nümunəsi

*Regional və qlobal səviyyədə mühüm siyasi və iqtisadi aktora çevrilən Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə daha da güclənir. Ötən il keçirilən prezident seçkilərində inamlı qələbə qazanan cümhurbaşqanı öz ölkəsini və türk dünyasını daha böyük Zəfərlərə aparır. Məlumdur ki, qardaş ölkə son 20 ildə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük uğurlar əldə edərək, beynəlxalq münasibətlər sistemində ciddi mövqeyə sahib olub. Məhz onun rəhbərliyi ilə böyük Türkiyə dövləti ən qüdrətli dönəmini yaşayır. Ötən il qardaş ölkədə keçirilən demokratik prezident seçkilərində bu, bir daha öz təsdiqini tapdı. Məhz türk xalqı növbəti dəfə öz liderinə arxalanaraq dünyaya əsl nümunə göstərdi. Rəcəb Tayyib Ərdoğan seçicilərin yarısından çoxunun etimadını qazanaraq növbəti dəfə Türkiyənin prezidenti seçildi. Cümhurbaşqanın qələbəsi türk dünyasına yeni nəfəs gətirdi. Həmçinin Azərbaycanda da bu qələbə böyük sevinclə qarşılandı.*



Türkiyə liderinin prezident seçkilərindəki qələbəsi iki qardaş ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə, yeni bir dövrün başlanmasına şərait yaratdı. Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı xalqa müraciətində "Azərbaycan qazandı, Qarabağ qazandı" ifadələri qardaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənməsindən xəbər verir. Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən siyasi liderin Azərbaycan Prezidenti İlham Əliyevin olması və R.T.Ərdoğanın bunu xalqa müraciətində böyük fərəhlə açıqlaması ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasını göstərir. Xatırladaq ki, İkinci Qarabağ müharibəsi başlanan gündən bəri, elə ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq dəstəyini açıq şəkildə ifadə edib. Müharibənin ilk saatlarından qardaş ölkənin Prezidenti Azərbaycan tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. Türkiyə liderinin açıq şəkildə ifadə etdiyi fikirlər ölkəyə müdaxilə etmək niyyətində olan olan digər qüvvələri, dairələri dayandırdı. Təsadüfi deyil ki, bütün dünya Azərbaycan-Türkiyə tandeminin nə qədər önəmli olduğunu anlayır. Bu gün Türkiyənin uğuru Azərbaycanı, ölkəmizin uğuru da qardaşlarımızı sevindirir. Xüsusilə, Avrasiya regionunda açar rolunu oynayan iki ölkə üçün gələcək prespektivdə uğurlar daha çox görünür.

Xüsusi qeyd edilməlidir ki, Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanın qələbəsi münasibətilə qardaş ölkənin prezidentini təbrik etməklə yanaşı, Azərbaycana dəvət etməsi sarsılmaz etimadın bariz nümunəsidir. Bildiyimiz kimi, Ərdoğanın prezident seçildikdən sonra ilk xarici səfərini Azərbaycana etməsi artıq ənənə halına çevrilib. Bu sarsılmaz birlik əbədi olaraq hər iki ölkənin inkişafına böyük töhfə verir. İndi Azərbaycan-Türkiyə münasibətlərində yeni bir era açılır. Bu yeni erada Azərbaycanla Türkiyə əl-ələ verərək birgə addımlayacaq, türk birliyini gücləndirməklə dünyaya yeni bir güc və ədalət nümayiş etdirəcək.

Qeyd edək ki, ötən il iyun ayının 3-də Türkiyə Böyük Millət Məclisində Rəcəb Tayyib Ərdoğanın inaqurasiya mərasimi keçirildi. Parlamentə sədrlik edən Dövlət Bağçalı Rəcəb Tayyib Ərdoğanın Türkiyə Respublikasının Prezidenti seçilməsinə dair protokolu ona təqdim edərək xatirə fotosu çəkdirdi. İnaqurasiya mərasimindən sonra 13-cü Cümhurbaşqanı Anıtqəbri ziyarət edərək Atatürkün məzarı önünə əklil qoydu və xatirəsini ehtiramla yad etdi. Qeyd edək ki, andiçmə mərasimində 21 dövlət başçısı, 14 baş nazir, habelə nazirlər və beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən Türk Dövlətləri Təşkilatı, NATO və İslam Əməkdaşlığı Təşkilatının rəhbərləri iştirak etdi. Xatırladaq ki, Türkiyədə Rəcəb Tayyib Ərdoğan prezident seçkilərinin mayın 28-də keçirilmiş ikinci turunda 27 milyon 834 min 589 səslə (52,18 faiz) qalib gəlib.

Ümumilikdə, 78 ölkənin təmsilçilərinin iştirak etdiyi Ankarada keçirilən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində Cümhurbaşqanı önəmli mesajlar verdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi mərasimdə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün, şəhidlərin və fevralın 6-da baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Sonra Türkiyə Respublikasının Dövlət Himni - "İstiqlal Marşı" səsləndirildi.

Türkiyənin artıq bütün dünyanın ehtiyac duyduğu və etiraf etdiyi müdafiə sənayesi, avtomobil istehsalı sahəsində əldə etdiyi böyük nailiyyətlər də məhz R.T.Ərdoğanın adı ilə bağlıdır. Məhz R.T.Ərdoğanın hakimiyyəti dövründə Türkiyə həm də təhsil, iqtisadiyyat, səhiyyə, turizm sahəsində dünyanın ən cəlbedici ölkələrindən birinə çevrilib. Xüsusilə, müdafiə sənayesinin sürətli inkişafı Türkiyəni dünya çapında ön plana çıxır. Türkiyə PUA-ları dünyada ilk yerdədir və Cümhurbaşqanının sözlərinə görə, Türkiyə müdafiə sənayesinin genişləndirilməsi istiqamətində işlər davam etdiriləcək. Dövlət başçısı qeyd edib ki, Türkiyənin müdafiə sənayesi sahəsindəki ixracı 4 milyard 400 milyon ABŞ dolları olaraq rekord həddə çatmışdır. ASELSAN, TUSAŞ, BMC, ROKETSAN, STM, FHSS, HAVELSAN dünyanın ilk 100 nəhəng şirkəti arasında yer alır. Eləcə də Türkiyənin pilotsuz vasitələr sahəsində fəaliyyət göstərən şirkətlərindən STM ilk 100 şirkət sırasındadır. Xüsusi vurğulanmalıdır ki, bu sahədə qardaş ölkə ilə əməkdaşlıq edən Azərbaycan öz gücünə güc qatır. Yeri gəlmişkən, ötən il Azərbaycan Müdafiə Nazirliyi və Türkiyənin "Baykar" şirkəti arasında ölkəmizdə pilotsuz uçuş aparatlarının birgə istehsalına dair niyyət protokolu imzalanması buna əyani sübutdur.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz". Bu reallıq iki ölkə arasındakı qırılmaz bağların təzahürüdür. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika.- 2024.- 2 iyun, № 115.- S.3.